# Ümummilli liderə ağsaqqal məhəbbəti

XX əsrin ən böyük tarixi şəxsiyyətlərindən, görkəmli dövlət və siyasi xadimlərindən biri, ulu öndər Heydər Əliyevin adı və həyatı Azərbaycan Respublikasının və





Azərbaycanın müstəqillik tarixi ilə qoşa çəkilir. Ölkəmizin son 50 illik tarixinin hər bir səhifəsi xalqımızın böyük oğlu Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevi təkcə Azərbaycan xalqı yox, bütün türk və müsəlman dünyası, digər dünya xalqlarına məxsus olan milyonlarla mütərəqqi düşüncəli insanlar sevir və onunla fəxr edirlər.

Görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın memarı və xilaskarı Heydər Əliyevin dünyaya gəlməsinin 90-cı ildönümü münasibətilə hazırda rayonumuzda silsilə tədbirlər keçirilir. Aprel ayının 13-də rayon ağsaqqallar şurası da ulu öndərin adını daşıyan mərkəzdə Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş tədbir keçirmişdir. Tədbirdə rayon icra hakimiyyətinin məsul işçisi Z. Əfəndiyev, ağsaqqallar iştirak edirdilər. Onlar əvvəlcə ulu öndərin büstü qarşısına tər güllər qoydular və onun əziz xatirəsini hörmət və ehtiramla yad etdilər.

Ağsaqqallar mərkəzin salonunda ümummilli liderimiz Heydər Əliyevin şərəfli ömür salnaməsini əks etdirən stendlərlə tanış oldular.

Tədbir mərkəzin brifinq salonunda təşkil olunmuş şirin çay stolu arxasında davam etdirildi. Ulu öndərin yubileyinə həsr edilmiş tədbiri giriş sözü ilə açan Mərkəzin direktoru Xəyalə İsayeva dahi rəhbərə el məhəbbətindən danışdı və bu tədbirlərdə iştirak edənlərin sayının gündən-günə, ildən-ilə artdığını bildirdi. Sonra Mərkəzin direktoru çıxış üçün sözü rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayevə verdi. O, «Heydər Əliyev və ağsaqqallar» mövzusunda iştirakçılara geniş məlumat verdi.

Müzakirələrdə çıxış edənlər: ağsaqqallardan Q. Səmədov, N. Şirinov, Ə. Ağayev, V. Əzimov, hacı Sahib Əhmədov və bu sətirlərin müəllifi A. Cəlilov Heydər Əliyev şəxsiyyətinin dahiliyini təsdiqləyən faktlara diqqəti cəlb etdilər, onun həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını yada saldılar.

Yığıncağın sonunda rayon icra hakimiyyətinin məsul işçisi Z. Əfəndiyev Heydər Əliyevin həyat və fəaliyyəti ilə əlaqədar geniş nitq söylədi və yığıncağı yekunlaşdırdı.

Sonra tədbir iştirakçıları «Şəxsiyyət» adlı sənədli filmə baxdılar.

**Aslan CƏLİLOV.**
**Fotolar**
**Səhrab Umuyevindir.**

# Ən böyük yaxşılıq

**(Hekayə)**

Həyatın ortasındakı armud ağacının altına qoyulmuş beşikdəki körpə şirin yuxuya getmişdi. Beşiyin üstündəki cuna örtüyün bir tərəfi sürüşərək çəmənə sərilmiş köhnə kilimin üzərinə düşmüş, digər ucu isə uşaqcığazın yanaqlı kiçik ovcunda ilişib qalmışdı. Onun məsum çöhrəsində hərdən yaranan təbəssüm ara-sıra diksindiyi zaman yox olur, nəfəsinin ahəngi dəyişir, sonra yenidən həmin təbəssüm bu kiçik varlığın üzünə qonurdu. Qocaman armud ağacının yarpaqları sanki pıçıltı ilə ona hansısa qədim bir nağılı söyləyir, həzin bir nənni çalırdı. Körpəcik isə öz bəyaz uşaq dünyasının göylərindəki ənginliklərdə pərvazlanaraq uçur,.. hey uçurdu...

Üstü kirəmidli, birmərtəbəli köhnə evin aşağı tərəfindəki, kəsilmiş qovaq ağacının kötüyünün üstündə təknədə paltar yuyan anası Lalə tez-tez başını qaldıraraq ona baxır, oyanıb-oyanmadığına göz qoyurdu.

Kolxoz sədri ilə sözü çəp gələn qaynının dolaşdırılaraq tələm-tələsik həbs edilməsilə əlaqədar əri mərkəzi komitəyə müraciət etmək üçün dünən Bakıya getmişdi.

Sahibinin evdə olmamasına görə ala inəyi də bu gün naxıra sürən olmamış, tövlənin qabağındakı talvarın altında bağlamışdılar.

Birdən həyətin taxta darvazası zərblə döyülməyə başladı. Qəfil səsə diksinib oyanan uşaq qorxu içində əvvəlcə darvazaya sarı, sonra başını döndərib anasına baxdı. Təlaş dolu gözləri alacalanmışdı. Elə bil qapının xeyirli bir iş üçün döyülmədiyini kiçik qəlbi ilə hiss etmişdi.

—Şükür, ay Şükür—kimsə uca və qaba səslə çağırdı.

Ərinin nimdaş yun köynəyindən körpəsinə tikdiyi yuyulmuş şalvarı zivəyə sərən Lalə:

—Bəli—deyə hay verdi.

—Şükürə denən tez qapıya gəlsin!

Bu kənd sovetinin sədri Çuğul Səfərin səsinə oxşayırdı. Mərdimazar və acımasız adam olan Çuğul Səfərdən nə pislik desən gözləmək olardı. Kənddə hamı ondan qaçar, heç kim onun gözünə görünmək istəməzdi. Camaat bu adamla üz-üzə gələndə naəlaclıqdan ağızucu salamlaşar, tez də yaxalarını qurtarmaq üçün bir bəhanə ilə ondan aralanardılar. Lakin o qırsaqqız kimi adama ilişər, kimin nə işlə məşğul olduğunu bilməmiş heç kəsdən bilmərrə əl çəkməzdi. Güclə oxuyub-yazması olan Səfəri nəyə görəsə uzun müddət idi bu vəzifədə saxlayırdılar.

—Gəlirəm—deyə cuna örpəyini səliqəyə salaraq yaşmanan Lalə darvazaya yaxınlaşıb cəftəni açdı.

Qapıda iki nəfər dayanmışdı. Biri Çuğul Səfər, digəri isə əynində uniforma olan, uca boylu, qaraşın bir kişi idi.

—Xoş gəlmisiniz, —az qala "a Çuğul Səfər" deyəcəkdi, lakin güclə sözünü geri qaytararaq—qardaş, Şükür evdə yoxdur—dedi.

—Hansı cəhənnəmdədir? -sovet sədri qeyzlə soruşaraq təklif gözləmədən həyətə soxuldu.

Nabələd adam Səfərin bu hərəkətindən pərt oldu:

—Bacı, mən xalq məhkəməsinin icraçısıyam. Qaynınızın həbsi ilə əlaqədar ev əşyalarınızın müsadirə olunmasına dair məhkəmənin qərarı var. Gəlmişəm vəzifə borcumu yerinə yetirim. Əriniz evdə deyilsə eybi yoxdur, biz sabah gələrik.



—Sən nə danışırsan, yoldaş Həmid, bəri gəl görək. A kişi, mən şeyləri rayona aparmaqdan ötürü araba da çağırmışam, sən isə ev sahibini gözləyək deyirsən. Allah bilir, Şükür bizim gəlməyimizi eşidib haraya əkilib—deyə, Çuğul Səfər israrla təkid etdi.

Nabələd adam deyəsən sovet sədrin tanıdığı üçün onun dirənməyindən bir qədər ehtiyatlandı və təmkinlə dedi:

—Hər halda müsadirə qanunauyğun icra olunmalıdır. Onda, qonşulardan xalq şahidi kimi iki nəfər çağırın, qoy ictimaiyyətin nümayəndələri də iştirak etsin.

Lalə elə bil yuxudan ayıldı:

—Nə müsadirə, nə araba? Siz nə danışırsınız, a kişi?—heykələ dönmüş qadın bunların niyyətini sanki indi başa düşürdü. Bu günlərdə başlarına gələnlər bütün ailəni sarsıtmışdı. Ona görə də özünün bu zabitəli adamların qarşısında aciz və gücsüz olduğunu dərk edir, əlindən bir iş gəlmədiyi üçün göz yaşlarını saxlaya bilmirdi.

Səs-küyə gələn qonşuların nifrət dolu qəzəbli baxışlarını öz üzərində hiss edən sovet sədri, onlara hökmünü göstərirmiş kimi eyvana çıxaraq təpiklə evin qapısını açıb otağa girdi. Dərhal da evdəki yorğan-döşəyi, xalçanı, təzə qalaylanmış mis qabları və çiniləri eyvanın ucuna daşımağa başladı. Səfəri tanıdığına görə heç kim qabağa gəlmir, ona mane olmağa cürət etmirdi. Bu əsnada kolxozun kəl arabası da cırıldaya-cırıldaya gələrək qapıda dayandı. Arabanın gəldiyini görən sovet sədri:

—Adə, Abbas, gəl şeyləri daşıyıb, yığ arabaya-deyə ona çəmkirdi.

Abbas eyvana yığılmış şeyləri arabaya daşıdıqca məhkəmə icraçısı könülsüz-könülsüz qeydiyyat aparırdı.

Hamının bu olaya başı qarışdığından beşikdəki körpəni unutmuşdular. Qorxaq baxışları ilə kirimişcə bu mənzərəni seyr edən uşaqcığaz qımıldanmır, iriləşmiş gözləri ilə toplaşan adamların arasında dayanaraq səssizcə ağlayan anasına boylanırdı.

Evin bütün əşyalarını eyvana yığıb qurtaran Səfər artırmada əlini belinə qoyaraq, həyətə nəzər saldı. Birdən tövlənin qabağında bağlanmış ala inəyi gördü.

—Adə, o inəyi də aç arabanın dalına bağla, bunlara inəkzad lazım deyil—deyə ucadan Abbasa donquldandı.

Abbas qonşuların tənəli baxışlarından və göz yaşları içində hıçqıran ev sahibəsinin biçarə görkəmindən çəkinərək inəyi açmağa ehtiyat elədi. Çuğul Səfər Abbasın tərəddüd etdiyini görüb hirslə eyvandan düşərək tövləyə tərəf yönəldi. İnəyin kəndirini açmaq istəyərkən gözləri ilə onu müşaiyət edən beşikdəki körpə deyəsən onun niyyətini başa düşdü və birdən çığıraraq, coşğu ilə ağlamağa başladı. Yanıqlı səsindən elə bil o, ailəsinin axırıncı ruzisinin də əlindən alınmasının fəciəsini hamıdan çox anlayırdı. İmdad axtaran baxışlarıyla izdihamın içindən anasını axtarır, sanki ona «qoyma inəyimizi aparsınlar» deyirdi.

—Dayan!—məhkəmə məmurunun ötkəm səsi gəldi—inəyi yerinə bağla, Səfər!!

Sovet sədri icraçının sərt və amiranə göstərişindən duruxdu. Bu zəhmli səsin hökmündən bir an bilmədi ki, nə etsin. Müti görkəm alaraq cəld kəndiri yerinə bağlamağa başladı. Onun əvvəlki təkəbbüründən əsər-əlamət qalmamışdı.

**(Ardı 5-ci səhifədə).**